# Alimin yeni monoqrafiyası oxuculara təqdim olunub

Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının dosenti, tarix üzrə fəlsəfə doktoru Xəzər Hüseynovun yeni monoqrafiyası çapdan çıxıb.




Monoqrafiya Naxçıvan Dövlət Universitetinin Elmi Şurasının 30 mart 2015-ci il tarixli qərarı ilə çap olunub. "Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının inkişafı (1924-2014-cü illər)" adlı monoqrafiya Naxçıvanda Əcəmi nəşriyyatında işıq üzü görüb.

Monoqrafiya dörd fəsildən ibarətdir. Birinci fəsil "Naxçıvan diyarının kənd təsərrüfatı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi" adlanır. Fəsildə müəllif tarixən aqrar diyar olan Naxçıvanın xalq təsərrüfatının əsas sahəsi kənd təsərrüfatının bərpası, kəndlərdə kollektiv təsərrüfatların təşkil edilməsi, müvafiq idarə quruluşunun yaranması, əkinə yararlı torpaq sahələrinin artırılması, suvarma sistemlərinin qaydaya salınması, kənd təsərrüfatının maddi-texniki bazasının yaradılması və möhkəmləndirilməsi kimi mühüm tədbirlərin həyata keçirilməyə başlanmasını elmi əsaslarla təhlil edib.

Monoqrafiyanın "Naxçıvan diyarının əkinçilik təsərrüfatı və onun mühüm sahələrinin inkişaf etdirilməsi" adlı ikinci fəslində muxtar respublikada kollektivləşdirilmənin gücləndirilməsi, kolxoz quruculuğunun inkişafı, onun maddi-texniki bazasının artırılması, kənd təsərrüfatı mütəxəssislərinin çoxalması, elmi nailiyyətlərin kənd təsərrüfatı ilə əlaqələndirilməsi, bütün bu tədbirlərin nəticəsində muxtar respublikada kənd təsərrüfatı bitkilərinin; taxılçılıq, pambıqçılıq, tütünçülük, üzümçülük, meyvəçilik və s. əkinə yararlı sahələrinin genişləndirilməsi və məhsuldarlığının ildən-ilə artırılması kimi problem məsələlər faktiki materiallar əsasında araşdırılıb.

Monoqrafiyanın üçüncü fəsli "Heyvandarlıq və quşçuluğun inkişafı"nın tədqiqinə həsr olunub. Bu fəsildə heyvandarlığın və quşçuluğun inkişaf tarixi, heyvandarlığın əhəmiyyəti, ölkədə heyvandarlıq məhsullarının artırılması, əhalinin real gəlirinin çoxalması, heyvandarlıq və quşçuluq təsərrüfatlarını inkişaf etdirmək üçün lazımi maddi-texniki bazanın yaradılması və s. məsələlər araşdırılır.

Monoqrafiyanın dördüncü fəsli "Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı (1991-2014-cü illər)" adlanır. Fəsildə müstəqilliyin bərpası və onun ilk dövründə Naxçıvan MR-də kənd təsərrüfatının vəziyyəti, ictimai-siyasi sabitlik şəraitində kənd təsərrüfatı sahələrində dirçəliş elmi əsaslarla, real faktlarla tədqiq edilmişdir.

Monoqrafiyanın bu fəslində ulu öndər Heydər Əliyevin 1990-cı il iyulun 22-də Naxçıvana gəlişi, 1991-ci ildə Naxçıvan Ali Məclisinin Sədri seçilməsi, həmin illərdə onun muxtar respublikada həyata keçirdiyi tədbirlərdən, dövlət quruculuğu prosesindən geniş bəhs edilmişdir. Müəllif tərəfindən qələmə alınmış əsər naxçıvanşünaslığa dəyərli bir töhfədir.

Dosent Xəzər Hüseynovun monoqrafiyasının hasilə gəlməsində Naxçıvanın elm adamlarının və universitet əməkdaşlarının da xeyli əməyi var. Belə ki, AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev monoqrafiyaya elmi redaktorluq edib və ön söz yazıb. AMEA-nın müxbir üzvləri Zəhmət Şahverdiyev, Fəxrəddin Səfərli, professor Nazim Əhmədov, tarix üzrə elmlər doktoru Fəxrəddin Cəfərov monoqrafiyanın rəyçiləridir.

Həmkarımızı monoqrafiyasının çapdan çıxması münasibətilə təbrik edir, ona yeni elmi uğurlar arzulayırıq.

**Nadir HÜSEYNBƏYLİ,**
*tarix üzrə fəlsəfə doktoru, dosent*